*İctimai və humanitar elmlər 11, №1, 2025, səh. 88-94*
https://doi.org/10.59849/3006-1342.2025.1.88
UOT 94(479.24)

*Fatma Ələkbər qızı Hüseynova*
*Laborant*
*AMEA Gəncə Bölməsi*
*Gəncə ş, H.Əliyev pr. 419*
*E-mail: v.nermin.2010@gmail.com*

# SOVET HAKİMİYYƏTİNƏ QARŞI AZƏRBAYCANDA BAŞ VERMİŞ İLK ÜSYAN

*Gəncə üsyanı XX əsr Azərbaycan tarixinin yaralı səhifələrindən biridir. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan və Şimali Azərbaycanda Sovet hakimiyyətinin qurulmasından bir müddət sonra – 1920-ci il mayın sonunda Gəncə şəhərində keçmiş Milli Ordunun zabitlərinin (Cavad bəy Şıxlınski, Məhəmməd Mirzə Qacar, Cahangir bəy Kazımbəyli və başqaları) başçılığı ilə yerli qarnizon qoşunlarının üsyanı baş verdi. Üsyançıların məqsədi Azərbaycanın sovet işğalından azad edilməsi və ölkənin müstəqilliyinin bərpası idi. Gəncə üsyanı Azərbaycanda sovet hakimiyyətinə qarşı müqavimətin ilk və ən mühüm təzahürü idi.*

*Açar sözlər*: Gəncə üsyanı, 1920-ci il, Sovet hakimiyyəti, bolşeviklər, XI Qırmızı ordu, Azərbaycan Xalq Cümhuriyyəti

## *Giriş*

XX əsrin əvvəllərində Azərbaycanın respublika idarəetmə üsuluna malik müstəqil dövlət olmasını təmin etmiş Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra ölkədə geniş miqyaslı müqavimət hərəkatı başlamış, məmləkətin ayrı-ayrı bölgələrində silahlı üsyanlar olmuşdur. 1918-1920-ci illərdə Azərbaycan xalqının qurduğu azad, müstəqil, demokratik dövlət təəssüflər olsun ki, Rusiyada bolşevizmin güclənməsi, kommunist ideyalarının geniş xalq kütlələrini aldadıcı mahiyyətdə əhatəsi və nəhayət, Azərbaycan daxilində mövqe müxtəlifliyinin olması, ermənilərin isə xəyanəti Azərbaycanı müstəqillik haqlarından məhrum etdi.

*Əsas hissə*. 1920-ci il aprelin 27-də Azərbaycan Xalq Cümhuriyyəti 23 aylıq mövcudiyyatından sonra sovet Rusiyasının XI ordusunun qanlı əməllərinə söykənən bolşeviklər tərəfindən süquta yetirilir. 27 aprel hadisələrindən sonra Azərbaycan xalqı bolşevik rejimi və işğalçılıq siyasəti ilə razılaşmadı. İlk günlərdən başlayaraq gizli təşkilatların yaradılması, müqavimət hərəkatının güclənməsi sübut edir ki, xalqımız nə bolşeviklərin, nə də XI Ordunun aldadıcı işğalçılıq planlarına inanmamış, fəaliyyətini təcavüzə qarşı mübarizəyə yönəltmişdir [9, s. 19].

1920-ci il mayın 26-dan 31-dək Sovet işğalına qarşı Gəncədə baş vermiş xalq üsyanının məqsədi Azərbaycanı sovet işğalından azad etmək, kommunistlərin özbaşınalığına son qoymaq idi. Bu üsyan XX əsrdə Azərbaycanın işğal edilməsinə qarşı baş vermiş ən böyük və ən çox itkiyə səbəb olmuş üsyandır. Üsyanın təşkilatçıları və istiqamətverici qüvvəsi Azərbaycan Xalq Cümhuriyyəti ordusunun zabitləri idi [11].

Gəncə tarix boyu öz milli mühafizəkarlıq ideyalarını, hökmranlığını qoruyan bir məkan olmuşdur. XX əsrin əvvəllərində Gəncə Azərbaycan milli hərəkatının mərkəzinə çevrilmişdir. İlk dəfə sovetlərə qarşı azadlıq səsini ucaldan da məhz Azərbaycanın ən üsyankar şəhəri olan Gəncə olmuşdur. XI ordunun gəlişini xalq sükutla qarşılasa da, işğalçı ordunun özbaşınalığı, günahsız insanların güllələnməsi xalqın qəzəbinə səbəb oldu, azadlıq mübarizəsi hər zaman

olduğu kimi Gəncədə başladı və işğalçılara nifrət bütün şəhər əhalisini bir nəfər kimi ayağa qaldırdı [10, s. 198].

M.Ə.Rəsulzadə bu üsyanla bağlı belə yazırdı:

"Bu üsyan Gəncədə başladı. Çarizmin qəddar generalı, knyaz Sisianovla parça-parça doğranıncaya qədər müqavimət göstərən Cavad xanın şəhəri bu dəfə də özünü göstərdi" [10, s. 16].

Aprel ayının 26 -dan 27-nə keçən gecə zirehli qatarlar qrupu Samur çayını keçib, cənuba doğru irəliləməyə başladı. Azərbaycan ordusu müqavimət göstərə bilmədi. Hərbi nazirin müavini, general Şıxlınski isə dəmir yolunun partladılması əmrini ləğv etdi.

Aprelin 27-də gündüz saat 12-də Azərbaycan Kommunist (b)P MK və Rusiya Kommunist (b) P Qafqaz Diyar Komitəsinin Bakı bürosu adından Azərbaycan Hökumətinə və Parlamentinə hakimiyyətin bolşeviklərə təhvil verilməsi barədə Həmid Sultanov tərəfindən ultimatum təqdim olundu. Elə həmin günün axşamı bolşeviklərin ultimatumunu müzakirə edən Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin son iclası keçirildi. M.Ə.Rəsulzadə və Ş.Rüstəmbəyovun kəskin etirazına baxmayaraq iclasda dinc əhali arasında qan tökülməməsi üçün hakimiyyətin bolşeviklərə təhvil verilməsi haqqında axşam saat 11-də qərar qəbul edilir. Hakimiyyəti təslim edərkən Azərbaycan Parlamentinin əsas tələblərindən biri də keçmiş Hökumət üzvlərinin təqib olunmaması idi. Lakin bolşeviklər hakimiyyəti ələ keçirdikləri ilk gündən keçmiş Hökumət üzvlərinin həbsinə və repressiyaya başladılar [5, s. 154].

Azərbaycan Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanovun qəbuluna XI ordunu siyasi idarəsinin xüsusi şöbə rəisi Semyon Pankratov gələrək böyük bir siyahını masanın üzərinə qoyur. Siyahıda 99 azərbaycanlı ziyalının və hərbçilərinin qətlinə fərman verilmişdi. İnqilab Komitəsinin sədri Nəriman Nərimanov etiraz edərək “99 adamın günahı nədir?, “hansı səbəbə görə bunlar güllələnməlidirlər?”, Pankratov isə “hələ bunlar hamısı deyil yaxın günlərdə daha böyük siyahı olacaq” -deyə bildirir [5, s. 12].

M.Ə.Rəsulzadə yazırdı ki, “Azərbaycanın həqiqi diktatoru, cəlladbaşı Pankratov idi. Onun əməli fövqündə bir əmr yox idi” [10, s. 14].

Bakıda Sovet hakimiyyətinin qurulması Gəncədə vəziyyətə çox ciddi təsir göstərdi. Aprelin 28-də Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Gəncə dairə komitəsi F.Əliyevin sədrliyi ilə Quberniya İnqilab Komitəsi yaratdı. O, hakimiyyətin bolşeviklərə təhvil verilməsi haqqında Gəncə qubernatoruna ultimatum verdi. Ultimatum qəbul olundu və ayın 29-da hakimiyyətin Quberniya İnqilab Komitəsinə verilməsi haqqında akt imzalandı. Mayın 1-də 11-ci Qırmızı ordu hissələri Gəncəyə daxil oldu. Lakin Sovet hakimiyyəti Gəncədə qəbul olunmadı.

Gözləmədikləri halda Gəncə quberniyasında sovet hakimiyyəti güclü müqavimət hərakatı ilə üzləşdi. Beləliklə mayın 26-da hər yana səs salan sovet işğalına qarşı güclü Gəncə üsyan baş verdi. Bolşevik rejimi Gəncə üsyanını yalnızca mayın 31 -də amansızlıqla yatıra bildi [2, s. 415].

Beləliklə türk dünyasında ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti süqut edir.

Azərbaycan istiqlal ideyalarının yorulmaz təbliğatçısı olan Cahangir bəy Kazımbəyli milli dirənişin davam etməsini, istiqlalın təhvil verilməsini və bundan əlavə, bolşeviklərin verdikləri sözlərə xilaf çıxmaqlarını, sovet bolşevik əsarətini heç cür qəbul etmirdi [1].

Azərbaycanı işğal edən XI ordu Azərbaycan Milli Ordusunun zabitlərini və ilk demokratik respublikanın dövlət xadimlərini təqib etməyə başladı. 1920- ci il may ayının əvvəllərində Azərbaycanın bolşevik rəhbərlərindən biri Mirzə Davud Hüseynov Qırmızı orduya tabe olmaq və onun əmrlərini yerinə yetirmək barədə Gəncədəki Milli Ordunun 3-cü piyada alayının komandiri Cahangir Kazımbəyliyə göstəriş verir. Cahangir bəy əmri yerinə yetirməkdən imtina etdi. Buna görə Mirzə Davud Hüseynov Gəncədəki Milli Ordunun 3-

cü piyada alayının tərk-silah edilməsi, alayın komandiri Cahangir bəy Kazımbəylinin isə vəzifəsindən uzaqlaşdırılmasına dair əmr verir. Eyni aqibət Gəncə şəhər komendantı Mirzə Qacarı və şəhərdəki birinci piyada diviziyasının komandanı general-mayor Cavad bəy Şıxlinskini də gözləyirdi.

İstintaqı ermənilər tərəfindən aparılan Gəncənin qubernatoru Xudadat bəy Rəfibəyli 1920-ci il may ayının 12-də bolşeviklər tərəfindən həbs edilərək Bakıya gətirilir və may ayının 20-də Nargin (Böyük Zirə) adasında güllələnir. Bununla da, Gəncədə onsuz da ağır olan vəziyyət, daha da gərginləşir [4, s.199]. İki gün sonra 1920-ci il may ayının 22-də Gəncə yaxınlığındakı Nüzgar kəndində Cahangir bəy Kazımbəylinin təşəbbüsü ilə iclas keçirilir və üsyanın başlaması haqqında qərar qəbul edilir. Üsyanın başlamasının əsas məqsədi XI Ordunun darmadağın edilməsi, Azərbaycanda milli hökumətin bərpası idi. Bu həm də Milli hökumətin qurulmasının 2-ci il dönümünə bir hədiyyə olmalı idi. Beləliklə, 1920-ci il may aynın 25-dən 26 keçən gecə saat üçdə işğalçı orduya və onların əlaltısı olan boşevik üsul-idarəsinə qarşı üsyan başlandı. Üsyanın başında Cahangir Kazımbəyli, Mirzə Məhəmməd Qacar, Cavad bəy Şıxlinski, Teymur Novruzov dayanırdı. Sarı Ələkbər də öz partizan dəstəsi ilə üsyana qatılmışdı.

3 iyun 1920-ci il Xalq Daxili İşlər Komissarlığı Şöbəsinin Bakıya göndərdiyi raportda yazılırdı:

“18 mayda fövqəladə komissar Həmid Sultanov 6 təlimatçı ilə birgə Gəncəyə gəlib. 25 May gecə saat 3-də bir artilleriya atəşindən sonra üsyan başlanıb. Səhər saat 5-də İnqilab Komitəsinin təlimatçıları və dövlət işçiləri küçəyə çıxdıqda tutulub həbsxanaya doldurulmuşlar. Həmin vaxt şəhərdə şiddətli mübarizə gedirmiş. Üsyançıların ön sıralarında general Şıxlinski, polkovnik Kazımbəyov, Şahzadə Məmməd Mirzə Qacar, Xoyski qardaşları, tanınmış Qəmbər, Ələkbər və III Gəncə alayının əsgərləri dururdular” [1]

Baş verən üsyan sovetin təcavüzkar işğalına qarşı 1920 il mayın 26-dan 31-dək Gəncə xalqının Azərbaycanın işğal edilməsinə, onun dövlət müstəqilliyinə, azadlığına son qoyulmasına qarşı xalqın ən kütləvi və mütəşəkkil müqaviməti idi. Üsyanın əsas təşkilatçıları və yol göstərən qüvvəsi Azərbaycan Xalq Cümhuriyyəti ordusunun zabitləri idi. Mayın 23-də üsyan başçılarının sonuncu müşavirəsi keçirildi. Müşavirədə Azərbaycan ordusunun təchizat rəisi general Məhəmməd Mirzə Qacar, 1 -ci piyada diviziyasının komandiri general-mayor Cavad bəy Şıxlinski, süvari diviziyasının komandiri Teymur bəy Novruzov, 3-cü Şəki süvari alayının komandiri polkovnik Cahangir bəy Kazımbəyov və başqaları iştirak edirdilər.

Üsyanın təşkilində başlıca olaraq, Azərbaycan ordusunun 1-ci piyada diviziyası, 3-cü Gəncə alayının şəhərdə olan bölmələri, 3-cü Şəki süvari alayının təlim komandası, bir topçu batareyası, diviziya qərargahına tabe olan komendant bölməsinin şəxsi heyəti iştirak edirdi. Qaçaq Qəmbər, Sarı Ələkbər, qaçaq Qasım Kolaxani, qaçaq Mikayıl və başqaları da öz silahlıları ilə birlikdə Gəncə üsyanında iştirak edirdilər. Şəhər əhalisindən qoşulan könüllülərlə birlikdə üsyançıların sayı 10 mindən artıq idi.

Üsyançılar Zaqatala və Qarabağdakı Milli ordu hissələrinə, həmçinin Gürcüstandan gələcək yardıma bel bağlayırdılar. Bu məqsədlə Qarabağa, Zaqatalaya və Gürcüstana xüsusi nümayəndələr göndərilmişdi.

Üsyanın baş verdiyi vaxt şəhərin daxilində və ətrafında 11-ci Qrrmızı ordunun 20-ci atıcı diviziyasının hissələri mövqe tutmuşdu. Diviziyanın 178-ci və 180-ci atıcı alayları şəhərin erməni məhəlləsində, 3-cü briqadanın rabitə taboru və komendant bölməsi isə şəhərin azərbaycanlılar yaşayan məhəlləsində idi. 40-cı süvari briqadası Zurnabad kəndinin ətrafında dayanmışdı [6, s. 7]. Mayın 25-də Taman süvari briqadasının 2-ci alayı da Gəncəyə gətirildi [2, s. 425].

Üsyançılar qısa müddətdə şəhərin mühüm obyektlərini, azərbaycanlılar məhəlləsindəki qırmızı qoşun hissələrini nəzarət altına götürdülər. Hərbi anbar, şəhər həbsxanası, dəmir yolu

stansiyası, fövqəladə komissarlığı binası da ələ keçirildi. Mayın 25-dən 26-na keçən gecə Gəncənin müsəlmanlar yaşayan hissəsindəki XI Qırmızı ordu hissələri tərk-silah edildi. Qırmızı ordunun 600 nəfər əsgər və zabiti əsir alındı. Gəncənin müsəlmanlar yaşayan hissəsi üsyançıların əlinə keçdi.

26 may, səhər tezdən şəhərin ikinci hissəsi mühasirəyə alınmışdır. Velikanovun başçılığı ilə 20-ci diviziyanın sağ qalan hissələri üsyançılara müqavimət göstərirdilər. Bununla da, Gəncə çayının üzərində cəbhəni saxlamaq mümkün olmuşdur [4, s. 202].

Mayın 28-də 18-ci süvari diviziyası da Zaqatalalı bölgəsindən gətirilərək, Gəncə ətrafında yerləşdirildi. Mayın 29-da kifayət qədər möhkəmləndirilmiş qırmızı qüvvələrin üsyançılar üzərinə hücumu uğursuzluqla nəticələndi. Bolşevik qüvvələrin bir neçə istiqamətdə etdikləri hücum heç bir nəticə vermədi bolşeviklər qarşısına qoyduqları vəzifəni yerinə yetirə bilmədilər. Əksinə, üsyançıların əkshücumları bolşevik qüvvələrini ağır vəziyyətə saldı. Belə olduqda 11-ci Qırmızı ordu komandanlığı Gəncəyə əlavə qüvvələr gətirməyi qərarlaşdırdı.

20-ci diviziyanın Gürcüstan sərhədində olan 2-ci briqadası, Bakıdakı zirehli avtodivizion Gəncəyə göndərildi. Mayın 30-da növbəti döyüşlər başlamazdan əvvəl 11-ci Qırmızı ordununun Gəncədə 5 piyada alayı, 6 süvari alayı, 7 əlahiddə hissə və dəstələri, 57 ədəd topu və 2 zirehli avtomobili var idi. Bu qüvvələrin çoxu şəhərin şimalında yerləşdirildi və mayın 31-də əsas hücum buradan başladı. Hücumun bütün istiqamətlərdən gücləndirilməsi, çoxlu sayda topların və zirehli avtomobillərin işə salınması şəhərdə son dərəcə böyük dağıntılara səbəb oldu. Bolşeviklər üsyançıları, habelə dinc əhalini mühasirəyə alaraq kütləvi şəkildə güllələyirdilər.

Kurişkonun kavaleriyası yaxınlıqda, Zurnabad dağlarında idi. Gəncədəki üsyanı eşidən kimi Kurişko öz dəstəsini saat 12-yə Gəncəyə gətirir. Ertəsi gün 16-cı və 18-ci diviziyalar Gəncəyə göndərilir.

Milli qüvvələrin Zaqatala və Gürcüstandan gözlədikləri yardım gəlmirdi, əksinə XI ordu güclənirdi. Qarabağa yardım üçün yola salınan milli ordumuzun zabitləri Gəncə-Yevlax yolunda saxlanılaraq qətlə yetirildilər. Mayın 28-də Gəncə vətənpərvərlərinə çatan xəbər isə daha ağır idi. Gürcüstan Rusiya ilə müqavilə imzalamışdı. Beləliklə, ordan kömək gözləməyə dəyməzdi.

Gəncə hadisələrinin nəticəsini öyrənmək üçün Bərdədən Yevlax istiqamətində hərəkət edən Ehsan xan Naxçıvanski dəstəsindəki Şəki alayı ilə Qızıl ordu hissələri arasında baş verən döyüşlər nəticəsində Ehsan xan və onu təqib edən bir qrup əsgər XI ordu hissələri tərəfindən ələ keçirilərək güllələndilər. Qızıl ordunun mühasirəsini yaran 32 üsyançı döyüşə-döyüşə Bərdəyə girməyə müvəffəq oldu. Döyüşlər bir həftə boyunca davam etdi. Bu hadisə "32 – lər dastanı" kimi də məşhurdur [3, s. 200].

Üsyanın başlama tarixinin seçilməsi də təsadüfi deyildi. Mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin elan olunmasının 2 ili tamam olurdu. Mayın 28-də Gəncə üsyanının rəhbərləri və şəhər ictimaiyyəti dairə məhkəməsinin binasına toplaşıb, Azərbaycanın istiqlaliyyətinin elan olunmasının ikinci illiyini qeyd edirlər [11]. Cahangir bəy Kazımbəyli toplantıda üsyanın başlanması tarixinin milli istiqlal günümüzlə eyni günə təsadüf etməsinin zəruriliyindən çıxış edirdi:

"Sabah mayın 28-dir Azərbaycanın müstəqillik günüdür. Biz tələf olarıq, lakin düşmən də qalib gəlmədən öncə yüzlərlə və minlərlə ölüsünün cəsədləri üzərindən yürüsün... 28 may yalnız milli istiqlalımızın elan olunduğu gün kimi deyil, həm də azadlıq uğrunda, Vətən uğrunda şəhid verdiyimiz gün kimi də tariximizə yazılmalıdı. 28 mayda əbədi düşmənimizə verilən layiqli cavabımız ruhumuzun yüksəkliyinin, mənəvi qalibiyyətimizin simvolu olacaqdır!" [1].

Bolşevik rejimi Gəncə üsyanını yalnız mayın 31-də amansızlıqla yatıra bildi. Azərbaycan Sovet Sosialist Respublikası Hökuməti Gəncədə sovet hakimiyyətinin

möhkəmləndirilməsi üçün cəza tədbirləri ilə yanaşı, inzibati-siyasi dəyişikliklər də həyata keçirdi.

Gəncə quberniyası 1922-ci ildə ləğv edildi. İyulun 3-də Gəncədə Qəza İnqilab Komitəsi yaradıldı. 1935-ci ildə Gəncə şəhəri S.M.Kirovun adı ilə "Kirovabad" adlandırıldı. 1920-ci ilin mayında Gəncə üsyanı zamanı XI Qızıl Ordudan 8500, Milli Ordumuzdan və mülki əhalidən isə 8000-dən 13000-ə qədər adam həlak oldu [10, s. 16]. Beləliklə, çar Rusiyası zamanında olduğu kimi, sovet dövründə də Gəncə özünün tarixi adından məhrum oldu. Sovet İttifaqı dağıldıqdan və Azərbaycanın istiqlaliyyəti bərpa olunduqdan (1991) sonra şəhərin tarixi adı yenidən özünə qaytarıldı [7, s. 14].

Sonrakı dövrlərdə sovet ideoloqları XX əsr Azərbaycan tarixində həqiqi vətənsevərliyin, mərdliyin, qəhrəmanlığın, yenilməzliyin parlaq örnəyi olan 1920-ci il 28 may Gəncə üsyanını tarixi yaddaşlardan silinməsinə çalışmışlar. Ancaq kommunist rejiminin bütün çabalarına, basqılarına baxmayaraq, xalqımız nəsildən-nəsilə, öz tarixi keçmişini ötürərək yaşadıb.

1920-ci ilin 28 aprelindən 1921-ci ilin avqustunadək bolşevik-daşnak terroru nəticəsində Azarbayanda 4 min adam qırmızı terorun qurbanı olur. 1921 – ci ilə qədər 12 general, 27 polkovnik və polkovnik – leytenant, 46 kapitan və ştabs kapitan, poruçik və podporuçik, 146-148 praporşik və podpraporşik 26 nəfər başqa rütbəli hərbi işçilər güllələnmişdir [3, s. 197].

Tanınmış Azərbaycan mücahidlərindən olan Ə.Yurdsevər "Azərbaycan İstiqlal savaşından səhnələr" adlı xatirələrində həbsdə olarkən bir bolşevik-çekistin ona dediklərini belə ifadə edir:

"Biz istəsək, 58-ci maddəyə istinad etməklə eyni məhbusu, cinayət dərəcəsi nə qədər ağır və ya yüngül olmağına baxmayaraq, edam etdirir, sürgünə göndərir, məcburi əmək koloniyalarına göndərir və yaxud büsbütün sərbəst buraxırıq! Biz burjua hakimləri kimi qanunun mahiyyətinə yox, inqilabçı vicdanımıza və duyğumuza görə hökm veririk" [10, s. 15-16].

"Yeni Qafqasya" "Azərbaycanın böyük matəmi" adlı məqalədə yazırdı ki, "Rusiya bolşevizmi hökümət pərdəsi altında Azərbaycan Türk Cümhuriyyətini sözün bütün mənasında istila etdilər. Türk dostluğu ve istiqlal şüarının arxasında hər növ hüquq və insaniyyət qanunlarının kirli əməlləri altında çeynəyən bu müstəqil qüvvələr məmləkətdə nə milli, nə idari, nə də siyasi heç bir istiqlal buraxmadı. Belə qaddar və zalım müdaxiləyə qarşı olan üsyanlar qəddarcasına yatırıldı. Azərbaycan, sözün tam mənasında ziyalıların, müəllimlərin, zabitlərin, fəhlə və kəndlilərin, milli və dini adət-ənənəsinə sadiq olan hər kəsin al qanına boyandı.

"M.Ə.Rəsulzadə məcmuədə dərc etdirdiyi "Tutduğumuz yol" adlı məqalədə göstərirdi: "Biz yalançı 27 Aprel pərdəsinin Azərbaycan üzərindən gec-tez çəkiləcəyi qənaətindəyik. Bu işi istiqlalçı Azərbaycan nəsli görəcəkdir. O nəsil ki, yabançı istila gücünə qarşı qüvvəsi ilə mücadilə edərək qeyri-bərabər mücadilədə çox böyük qurbanlar verməklə bərabər, əzmindən dönmür, xalqın gözünü açmaq, ruhunu yüksəltmək və xilas gününü gözləyən ümidini qüvvətləndirmək üçün bütün mövcudiyyətini fəda edir. ...bunun üçündür ki, düşmən bütün hiddətini , bütün şiddətini və bütün nifrətini bu zümrəyə, bu orduya yönəltmişdir" [8, s. 127].

"Azərbaycan" qəzetinin redaktoru Ceyhun Hacıbəyli dərgisində Gəncə üsyanı haqqında belə yazırdı: "Gəncə üsyanı millətimizin şərəf və namusunun yenidən kəsbi-etibar qazandığı bir dastandır. Gəncədə may ayında tökülən türk qanı 27 aprel hadisəsində hərəkatında millətimizə atılan ləkəni silib-götürdü".

## *Nəticə*

Sovet Rusiyasının qoşunları tərəfindən Gəncə üsyanı sərt şəkildə yatırıldı. Üsyan nəticəsində bir çox üsyançı öldürüldü və bir çoxu həbs olundu. Üsyanın yatırılması və Sovet

qoşunlarının Gəncəyə müdaxiləsi Azərbaycanın müstəqillik mübarizəsini sona çatdıraraq ölkənin Sovet hakimiyyətinə daxil olmasına yol açdı.

ƏDƏBİYYAT

1. Anar Turan. “Xalq qəzeti”. 7 mart 2017-ci il. “Gəncə üsyanının təşkilatçısı və ideoloqu”.
2. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası iki cilddə. I cild, “Lider nəşriyyat”, Bakı, 2004, 471 s.
3. Əmrahov M. XX əsrdə Azərbaycanda Milli-Azadlıq hərəkatı. Ali məktəblər üçün dərslik. Bakı: ADPU-nun nəşriyyatı, 2009, 400 s.
4. “Gəncə şəhərinin aktual problemləri”. Gəncə Şəhər İcra Hakimiyyəti. AMEA Gəncə Bölməsi. Gəncə - 2010. 362 s.
5. Nəzirli Ş. Güllələnmiş Azərbaycan Generalları. Bakı, 2016, 704 s.
6. Rəsulova N. Gəncə Azərbaycan milli-azadlıq hərəkatının mərkəzi və Azərbaycan Xalq Cümhuriyyətingn paytaxtı kimi. AMEA Gəncə Bölməsi Xəbərlər məcmuəsi “İctimai və humanitar elmlər” seriyası № 2 (10), s.7
7. Rəsulova N. Gəncə müstəqillik dövründə (1991-2010-cu illər). Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın Avtoreferatı Bakı-2017.
8. Tahirli A. Azərbaycan mühacirət mətbuatında publisistika (1921-1991). Bakı, 2005, 528 s.
9. Yaqublu N. “Azərbaycan Legionerləri”. Bakı, 2002, 341 s.
10. Yaqublu N. “Azərbaycan legionerləri”. Bakı, “Çıraq”, 2005, 228 s.
11. https://az.wikipedia.org/wiki/G%C9%99nc%C9%99_%C3%BCsyan%C4%B1_(1920)
12.https://azadmedia.az/gundem/61842-sovet-alina-qari-gncd-ba-vern-muqavmt-hrkati-ozl.html

УДК 94 (479.24)

*Фатма Алекбер Гусейнова*
*Гянджинское отделение НАНА*

## ПЕРВОЕ ВОССТАНИЕ В АЗЕРБАЙДЖАНЕ ПРОТИВ СОВЕТСКОЙ ВЛАСТИ

*РЕЗЮМЕ*

*Ключевые слова:* Гянджинское восстание, 1920 год, Советская власть, большевики, XI Красная Армия, Азербайджанская Демократическая Республика

Гянджинское восстание — одна из самых трагичных страниц истории Азербайджана XX века. Спустя некоторое время после распада Азербайджанской Демократической Республики и установления Советской власти в Северном Азербайджане - в конце мая 1920 года, в городе Гянджа вспыхнуло восстание местных гарнизонных войск под руководством офицеров бывшей Национальной армии (Джавад бек Шихлинский, Мухаммед Мирза Каджар, Джахангир бек Казымбейли и другие). Целью повстанцев было освобождение Азербайджана от советской оккупации и восстановление независимости страны. Гянджинское восстание было важнейшим проявлением сопротивления советской власти в Азербайджане.

UDC 94 (479.24)

*Fatma Alakber Huseynova*
*Ganja Branch of ANAS*

THE FIRST UPRISING IN AZERBAIJAN AGAINST SOVIET POWER
*SUMMARY*

*Key words:* Ganja Uprising, 1920, Soviet power, Bolsheviks, XI Red Army, Azerbaijan Democratic Republic

The Ganja Uprising is one of the wounded pages of the history of Azerbaijan in the 20th century. Some time after the collapse of the Azerbaijan Democratic Republic and the establishment of Soviet power in Northern Azerbaijan - at the end of May 1920, an uprising of local garrison troops led by officers of the former National Army (Javad bey Shikhlinsky, Mahammad Mirza Qajar, Jahangir bey Kazimbeyli and others) took place in Ganja city. The goal of the rebels was the liberation of Azerbaijan from Soviet occupation and the restoration of the country's independence. The Ganja Uprising was the most important manifestation of resistance to Soviet power in Azerbaijan.

**Daxil oldu: 04.03.2025-ci il**